ƏSRİN FACİƏSİ

Xocalı faciəsi 200 il ərzində erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamı idi.

Tarixi faktlar göstərir ki, əzəli Azərbaycan torpaqlarında - indiki Ermənistanda, Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı yeddi rayonda yaşayan azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarlarının köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

Azərbaycan Prezidenti çıxışlarının birində bu barədə deyib: ***"Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Bu soyqırımı törətməklə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil səfərbər etmişdir. Məqsədimiz Xocalı faciəsinə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır".***

Xocalı soyqırımını dünyaya tanıtmaq Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik xarici siyasəti nəticəsində bəzi aparıcı beynəlxalq təşkilatlar Xocalı soyqırımını rəsmi olaraq tanımış, Ermənistanı işğalçı, terrorist dövlət kimi qəbul etmişdir.

Hər il bu müdhiş faciənin ildönümünün respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunması da bunun bariz ifadəsidir. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük xidmətləri danılmazdır.

İndiyədək Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə keçirilən mitinqlər, anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əksəda doğurub.

Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur.

Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılır, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olur, bilirlər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, hətta uşaqları belə qətlə yetirməkdən çəkinmirlər.

Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərar və qətnamələrində əksini tapıb. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də ABŞ-ın 20-dən çox ştatının qanunverici orqanı və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul edilib. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad etdiyi, şəhidlərimizin qisasını aldığı kimi, vaxt olacaq ki, Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən erməni cinayətkarları da məhkəmə qarşısında cavab verəcəklər.

Sahib QƏDİROV,
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşı.

Azərbaycan xalqına və insanlığa qarşı törədilən ən böyük cinayət

SSRİ-nin süqutundan sonra isə Ermənistanın ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdə biri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı oldu. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə müharibədən əvvəl 7 min insan yaşayırdı. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər. O zamankı Azərbaycan hakimiyyəti erməni təcavüzkarlarının törətdikləri bu dəhşətli vəhşiliyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən respublika rəhbərliyinə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. Dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün inadlı və ardıcıl fəaliyyət göstərdi. Eyni zamanda, 1994-cü ildə ulu öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi ötən illər ərzində erməni millətçiləri tərəfindən xalqımıza qarşı törədilən cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparılıb. Dövlətimizin başçısı Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardıqları soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Qeyd etmək lazımdır ki, 200 ildir ki, soysuz, heç bir yerdə vətəni olmayan ermənilər bu iyrənc siyasəti həyata keçirərək etnik təmizləmə, soyqırımı siyasətini zaman-zaman həyata keçiriblər. Azğınlaşmış ermənilər sağlam düşüncəli insanların ağlına gətirmədiyi vandallığı, vəhşiliyi törətdilər. Hazırda Ermənistan adlanan Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı və qeyri-millətin nümayəndəsi yaşamır. Dünya birlikləri isə ermənilərin bu əməllərinə daima susqunluq nümayiş etdirmişlər.

Ermənilərin törətdikləri vəhşiliklərin içərisində ən dəhşətlisi dünyada analoqu olmayan Xocalı faciəsi oldu. Xocalı faciəsini törətməkdə ermənilərin məqsədi azərbaycanlıların kompakt yaşadıqları Xocalı şəhərini ələ keçirmək, bu strateji məkanı tamamilə yer üzündən silmək oldu. Çünki Xocalı qədim tarixə malik, Azərbaycanın qədim və müasir mədəniyyətini özündə cəmləşdirmişdi.

Xocalıda Azərbaycanlıların hələ qədimdən yaşamasını sübut edən bir çox məişət əşyaları və digər tarixi abidələr mövcud olmuşdur. Vəhşiləşmiş ermənilər ən qədim qəbiristanlıqlardan olan Xocalı qəbiristanlığını texnikalar vasitəsilə tamamilə dağıdaraq heç bir iz qoymadılar.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri 70 il tərkibində yaşadığımız və inandığımız keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının zirehli texnikaları və şəxsi heyətinin köməkliyi ilə əliyalın, günahsız, dinc əhalinin yaşadığı Xocalı şəhərinə hücuma keçdilər. Zavallı insanlar meşələrə qaçmaqla canlarını qurtarmağa çalışdılar. Ancaq meşədə daha ağır müsibətlərlə rastlaşdılar. Meşələrdə gizlənmiş, vəhşiləşmiş, bütün insani hisslərdən uzaq olan erməni-rus birləşmələri xocalılılara divan tutdular. Qoca, qadın, uşaq, hamilə qadınlar, bir sözlə qarşılarına çıxan hər kəsi işgəncələr verərək qətlə yetirdilər. XX əsrin ən dəhşətli faciəsini həyata keçirdilər. 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdilər.

Qeyd etmək lazımdır ki, Xocalı faciəsi zamanı istifadəsi qadağan olunmuş silahlardan istifadə olunmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, həmin zamanlarda özlərini sülh carçısı kimi qələmə verən beynəlxalq təşkilatlar baş verən bu faciəyə heç bir reaksiya vermədilər. Ulu öndər Heydər Əliyev Azərbaycana ikinci dəfə hakimiyyətə gəldikdən sonra faciəyə siyasi qiymət verildi. Bu barədə Heydər Əliyev demişdir ki, 1994-cü il 26 fevral ərəfəsində mən Milli Məclisə təklif verdim. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı Xocalı faciəsi günü elan olundu. Bu gün bizim tariximizdə, təqvimimizdə matəm günüdür, hüzn günüdür. Bunu biz qanunla qəbul etdik.

Xocalı faciəsi hər bir azərbaycanlının qan yaddaşına həkk olunmuşdur. Bakı şəhərində, eləcə də respublikanın digər şəhər və qəsəbələrində Xocalı qurbanlarının xatirəsinə abidələr ucaldılmışdır. Hər il 26 fevral tarixində minlərlə insan Bakı şəhərindəki "Ana harayı" abidəsinin önünə gül-çiçək dəstələri qoyaraq həlak olanların xatirəsini yad edirlər.

Dövlətimizin başçısı İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında qətiyyətli addımlar atır. Xocalı faciəsinin bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırılması üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın böyük əməyi vardır. Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası keçirilir. Kampaniyanın keçirilməsində məqsəd Xocalıda törədilmiş bəşəri cinayətin bütün dünyaya çatdırılması və faciəyə hüquqi-siyasi qiymətin verilməsinə nail olmaqdır.

44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuz 30 il ərzində işğal altında qalan müqəddəs yerlərimizi işğaldan azad etdi. Şəhidlərimizin, eləcə də Xocalı qurbanlarının qisası alındı.

Ali Baş Komandan İlham Əliyev çıxışı zamanı deyib: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib. Biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik. Özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi siyasi rəhbərliyi cinayətkarlardır və bu cinayətkarları cəzalandıracağıq".

Samirə KAZIMOVA,
Şəmkir rayon Kür qəsəbə xəstəxanasının baş həkimi, YAP-ın üzvü.

Xocalı qətliamı

Yaxın tariximizin faciəli səhifələrindən biri kimi Xocalı soyqırımı xalqımızın qan yaddaşına əbədi həkk edilmişdir. Müharibə bəşəriyyətə həmişə ağır bəlalar gətirmiş, insanları dözülməz məhrumiyyətlərə, əzab-əziyyətə düçar etmişdir. Xocalı soyqırımı ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, qatı cinayət kimi tarixə yazıldı.

Xocalıda baş verənlər o zaman Azərbaycanda dövlət rəhbərliyində olanların laqeydliyi üzündən dünya ictimaiyyətinə çatdırılmamışdır. Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıdandan sonra ermənilərin xalqımıza qarşı törətdiyi Xocalı soyqırımı haqqında əsl həqiqətlər dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırıldı.

Ulu öndər Heydər Əliyev Xocalı soyqırımı ilə əlaqədar xüsusi fərman imzalamışdır və Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 Fevral - Xocalı Soyqırımı Günü elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Ulu öndər hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak etmiş, Xocalı soyqırımını kədər hissi ilə xatırlamışdır. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan edən ulu öndərimiz hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu faciənin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Faciəni xalqımızın böyük dərdi adlandıran Heydər Əliyev, eyni zamanda Azərbaycanımızın əsrlər boyu keçdiyi mübarizə, milli-azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir.

Soyqırımının tarixi ermənilərin Azərbaycan ərazilərinə köçürüldükləri dövrdən başlanır. 1813-cü ildə "Gülüstan" və 1828-ci ildə "Türkmənçay" müqavilələrinin, həmçinin 1828-1829-cu illərdə baş vermiş Türkiyə-Rusiya müharibəsindən sonra Ədirnə sülh müqaviləsinin bağlanılması ilə Azərbaycanın tarixi torpaqları bölündü. Araz çayı sərhəd olmaqla sahəsi 280 min kvadratkilometrdən çox olan Cənubi Azərbaycan İran imperiyası, sahəsi 130 min kvadratkilometrə qədər olan Şimali Azərbaycan isə Rusiya imperiyası tərəfindən işğal edildi. Çar Rusiyasının köməyi ilə Şimali Azərbaycanda yerləşdirilən ermənilər yerli sakinlərə qarşı ərazi iddialarına başladılar. Nəticədə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində və başqa Azərbaycan torpaqlarında gəlmə ermənilər yerləşdirildilər. Beləliklə, erməni millətçiləri azərbaycanlılara qarşı dəfələrlə - 1905-1906-cı illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə və 1988-1993-cü illərdə kütləvi soyqırımı həyata keçirdilər. Təkcə 1904-1905-ci illərdə ermənilər Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda yüz minlərlə dinc azərbaycanlı sakini amansızcasına qırdılar, dəhşətli cinayətlər törətdilər. Həmin hadisələr zamanı Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl ərazilərində yüzlərlə Azərbaycan kəndi tamamilə dağıldıldı. İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi məhv edildi.

Tarix boyu erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı qanlı cinayətlər, terror aktları, soyqırımı törədilib. Xocalı faciəsi bunlardan yalnız biridir. 26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli vəhşilik törədildi.

Bu gün isə Azərbaycan diplomatiyası soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində intensiv iş aparır. Prezident cənab İlham Əliyev Xocalıda baş verənləri erməni millətçilərinin iki yüz ildən çox müddətdə xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifələrindən biri kimi səciyyələndirib. Dövlət başçısı demişdir: "Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə, bütün dövrlərdə hərbi, iqtisadi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tammiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Zaman-zaman davam etdirilən bu məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü".

Bu faciənin bütün dünya ölkələri tərəfindən soyqırımı aktı kimi qəbul edilməsi üçün uzun illərdir Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası həyata keçirilir. Azərbaycan gənclərinin xüsusi fəallığı ilə müşayiət olunan kampaniyalar dünyanın müxtəlif guşələrində Xocalı soyqırımı barədə həqiqətlərin yayılmasında, beynəlxalq ictimaiyyətin diqqətinin erməni təcavüzkarlığının ağır nəticələrinə cəlb edilməsində mühüm rol oynayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı ölkəmizin ərazisinin 20 faizi işğal edilmişdi. Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır.

Xocalı soyqırımı bəşər tarixinin ən dəhşətli faciəsi kimi heç vaxt yaddaşlardan silinməyəcəkdir. Xocalıda tökülən qanlar bu torpağın üstündə açılan çiçəklərin rəngidir. Vaxt gələcək, ermənilər axıtdıqları qana görə tarixin ədalət məhkəməsi qarşısında dayanacaqdır. Çünki tarix heç nəyi unutmur.

30 ilə yaxın bir müddət keçməsinə baxmayaraq, Azərbaycan xalqı o qanlı faciəni heç vaxt unutmamış və unutmayacaqdır. Xalqımız ötən illər ərzində ermənilər tərəfindən işğal olunmuş doğma torpaqlarımızın azad olunması və işğal zamanı şəhid olmuş soydaşlarımızın qisasını almaq, intiqam hissi ilə yaşamışdır. Müzəffər Ali Baş Komandan və Şanlı Ordumuz erməni tapdağında olan torpaqlarımızı cəmi 44 gün ərzində işğaldan azad etdi, Xocalıda və digər yerlərdə həlak olmuş qəhrəman övladlarımızın qisasını aldı.

Əli SADIQOV,
"Respublika".

Əbədi qan yaddaşımız

Müxtəlif dövrlərdə ermənilər tərəfindən soyqırıma məruz qalmış Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin fevralında Xocalıda üzləşdi. Ermənilər XX əsrin sonlarında sivilizasiyalı bəşəriyyət üçün növbəti tarixi cinayəti - Xocalı soyqırımını törətdilər. Ermənilərin törətdikləri ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımı tariximizə qanlı hərflərlə yazılmaqla xalqımızın qan yaddaşına əbədi həkk olundu. Xocalı soyqırımı Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədi ilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş qətliamların miqyasca ən dəhşətlisidir.

Ermənilər və onlara havadarlıq edən dövlətlər Xocalı faciəsini törətməklə xalqımızın mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin mənfur düşmən məqsədinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi, ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.

Xocalının işğalı xüsusi plan əsasında həyata keçirilib. Belə ki, 1991-ci ilin oktyabr ayından bu şəhər ermənilər tərəfindən blokadada saxlanılırdı. Həmin ayın 30-dan Azərbaycanla avtomobil əlaqəsi kəsilən Xocalının yeganə nəqliyyat əlaqəsi hava xətti ilə mümkün olurdu. Şuşa şəhərinin səmasında mülki helikopterin vurulmasından sonra bu əlaqə də kəsilmişdi. Beləliklə, 1992-ci il yanvarın 28-də sonuncu helikopteri qəbul edən Xocalı tam mühasirə şəraitində yaşamışdır.

Ermənilər tərəfindən Xocalıya hücum edilməsinin başlıca səbəbi şəhərin strateji mövqeyi idi. 7 mindən artıq əhalisi olan bu yaşayış məntəqəsi Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşməklə böyük əhəmiyyət kəsb edirdi. Əgər Qarabağdakı yeganə aeroportun da burada yerləşdiyini nəzərə alsaq, Xocalını ələ keçirmək üçün ermənilərin o dövrdə necə canfəşanlıq etdiklərini aydın təsəvvür etmək olar.

Qeyd edək ki, Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Bir çox tarixi faciələrimiz kimi, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində sistemli və ardıcıl iş ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Məhz ulu öndərin təşəbbüsü ilə Xocalı soyqırımına ilk dəfə olaraq düzgün siyasi-hüquqi qiymət verildi. Milli Məclisdə 1994-cü ildə fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan edildi. Sənəddə hadisənin başvermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlanır. Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın sovet hərbi dairələrinin dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görüldü, xarici dillərdə kitablar, sənədlər dərc olundu. Xocalı genosidi müxtəlif təşkilatlarda gündəmə gətirildi, bununla bağlı bir çox internet saytları yaradıldı. Ulu öndərin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun müstəsna rolu var. Fond yaradıldığı ilk gündən bütün imkanlarından istifadə edərək Xocalı soyqırımının dünyada təbliğ olunması yönündə ardıcıl, məqsədyönlü və səmərəli tədbirlər həyata keçirməkdədir. Fondun gərgin əməyi nəticəsində dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılır.

2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da gücləndirib. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Hər il Azərbaycanda və dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı genişmiqyaslı tədbirlərlə qeyd edilir. Bütün bu tədbirlər, o cümlədən Prezident, Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə Azadlıq meydanından "Xocalı soyqırımı" abidəsinə edilən ümumxalq yürüşləri xalqımızın işğal altındakı torpaqların azad olunması uğrunda həmrəyliyinin nümayişi idi. On minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşləri işğalçıya və onların havadarlarına mesaj idi.

Bəli, 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarını azad edən Azərbaycan xalqı milli maraqlarını təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu Qələbə ilə Azərbaycan tarixinin şərəfli səhifəsinin, yeni qəhrəmanlıq salnaməsinin müəllifi oldu.

Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə layiq olduqları məğlubiyyəti yaşatdılar. Yağı düşmən işğal etdiyi Azərbaycan torpaqlarından qovuldu. Şəhidlərimizin qisası alındı.

Dövlət başçısı İlham Əliyev bütün çıxışlarında dünya güclərini erməni faşizmini məhv etmək üçün səylərini birləşdirməyə çağırır. Müzəffər Ali Baş Komandan İlham Əliyev səsləndirdiyi bir çağırışı xüsusi qeyd etmək istərdik: "Biz heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı".

Bəybala BƏYBALAYEV,
"Respublika".